# Mənəvi dəyərlərimiz



**Onlar Zərdab rayonunda necə qorunur?! Mədəni irsimizin təbliği istiqamətində bu bölgədə hansı işlər görülür? Bu və ya digər suallara cavab tapmaq üçün rayon mədəniyyət və turizm şöbəsinin müdiri Eldəniz Abdullayevə müraciət etdik.**

O bölgədəki 76 klub müəssisəsinin, 49 kitabxananın, 3 muzey və 1 uşaq incəsənət məktəbinin son illərdə göstərdiyi fəaliyyətdən danışdı. Eldəniz müəllimin söhbətini diqqətinizə verməzdən əvvəl onun tərcümeyi-halından müəyyən məqamlar üzərində dayanmaq istəyirik.

Eldəniz Əlipaşa oğlu Abdullayev M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) mədəni-maarif fakültəsini bitirib. 1967-1971-ci illərdə rayon mədəniyyət evinin direktoru vəzifəsində çalışıb. 1972-1973-cü illərdə ordu sıralarında xidmət edib. Rayona qayıtdıqdan sonra yenidən mədəniyyət evinin direktoru olub. 1999-cu ildən Zərdab Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir. Həyat yoldaşı Xuraman Xəlilova ixtisasca həkimdir. Oğlu M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tələbəsidir.

Eldəniz müəllim düz 10 ildir ki, şöbə müdiridir. Mədəniyyət sahəsindəki uğurlarda onun xüsusi zəhmət payı vardır.

E.Abdullayevin dediklərindən:

- Mədəniyyət müəssisələrində 383 nəfər çalışır. Onlardan 42-si ali, 234-ü orta ixtisas və 107 nəfəri isə orta təhsillidir. Əməkdaşlarımızın 312 nəfərini qadınlar, 71 nəfərini isə kişilər təşkil edir.

Onların birgə səyi ilə hesabat dövrü ərzində xalqımızın uzun sürən təkamül prosesinin məhsulu olan adət və ənənələrinin, mənəvi dəyərlərinin təbliği və qorunması istiqamətində maraqlı, yadda qalan geniş tədbirlər keçirilmişdir.

Mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların yubileylərinin təşkili, tarixi əlamətdar günlərin qeyd edilməsi ilə bağlı görülən işlər də razılıq doğurur. Təqdirəlayiq cəhət budur ki, yubiley gecələri, sərgi və konsertlər yalnız rayon mərkəzində deyil, həm də kəndlərdə geniş vüsət almışdır. Gəndəbil, Gəlmə, Əlvənd, Körpükənd, Yuxarı Seyidlər, Məlikmudlu, Qaravəlli, Məmmədqasımlı, Pərvanlı, Ləloağacı, Qoruqbağı, Çallı və s. kənd mədəni-maarif müəssisələrinin bu sahədəki fəaliyyəti xüsusilə yüksək səviyyədə qurulmuşdur.

Zərdab

Ötən müddət ərzində müəssisələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də xeyli iş görülmüşdür.

MKS-yə 200 m pərdə, 10 ədəd kitab rəfi, kənd kitabxanaları üçün 100 ədəd stul, 10 ədəd stol, kompyuter dəsti, 1200 manat dəyərində kitabxana texnikası, rayon mədəniyyət evi üçün 3 ədəd tozsoran, kompyuter dəsti, kondisioner, generator, 100 ədəd stul, 1 dəst distasion mikrafon, musiqi mərkəzi, kserokopiya, səs gücləndirici dinamik və s. alınmışdır. MKS-də, Yarməmmədbağı, Pərvanlı, Gödəkqobu, Məmmədqasımlı, Əlvənd, Fəhlə qəsəbəsi və s. kitabxanalarda, Əlvənd, Gödəkqobu, Məlikmudlu, Pərvanlı, 21 saylı Fəhlə qəsəbəsi, Yuxarı Seyidlər kənd və rayon mədəniyyət evlərində əsaslı təmir-bərpa işləri aparılmışdır.

Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi məsələsi daim diqqət mərkəzindədir. Bu məqsədlə biz yerlərdə olur, müvafiq söhbətlər aparır, çağırışçılar və əsgərlər qarşısında maraqlı konsert proqramı ilə çıxışlar edirik.

Bu işdə incəsənət məktəbi, mədəniyyət evi və klublar kimi MKS, kitabxana və muzeylərin imkanlarından da maksimum dərəcədə yararlanırıq.

Yeri düşmüşkən qeyd edim ki, kitab fondumuz 335533 nüsxədir. 28 mindən artıq oxucumuz var. Hər il minlərlə nüsxə latın qrafikalı yeni ədəbiyyat alırıq. Hesabat dövrü ərzində bu göstərici 9274 nüsxəyə bərabər olmuşdur.

Hazırda rayonumuzda 3 muzey fəaliyyət göstərir. Burada 5436 eksponat cəmlənmişdir. Keçən il muzeylərimizin 3000 nəfər tamaşaçısı olmuşdur. 79 ekskursiya, 15 mühazirə və 16 sərgi təşkil edilmişdir.

Bu və digər tədbirlərin müntəzəm keçirilməsi əhalinin asudə vaxtının səmərəli təşkilinə öz müsbət təsirini göstərir.

Təbii ki, mədəni-maarif müəssisələrimizin fəaliyyətində nöqsan və çatışmazlıqlar da mövcuddur. Onların ləğvi, habelə işimizi günün tələblərinə uyğun şəkildə qurmaq üçün vaxtaşırı yerlərdə olur, müvafiq tədbirlər görürük...

**• E.HƏSƏNQIZI**